# Kürdəmir: Torpaqdan ildə iki dəfə məhsul götürülməsinə start verilir

❒ ***Bax, buna deyərlər, dövlət siyasətinin yerlərdə uğurlu icrası. Həm yeni iş yerləri yaranacaq, həm də məhsul bolluğu. Həm ilboyu bazarlarımız təzə məhsulla zəngin olacaq, həm də əkin-biçin adamlarının büdcəsi zənginləşəcək.***



Haqqında söz açmaq istədiyim xəbər məni elə "tutdu" ki, məsələnin mahiyyətinə keçmədən nəticələr barədə söz açdım. Söhbət nədən gedir? Bir neçə gün əvvəl, daha doğrusu, avqustun 15-də öyrəndim ki, Kürdəmir rayonunda payızlıq kartof əkininə start verilib. Rayon icra hakimiyyətindən bildirdilər ki, torpaq mülkiyyətçiləri qısa vaxtda 40 hektardan çox sahədə əkin apardılar. Cari mövsümdə azı 200 hektarda payızlıq kartof əkiləcək. Belə əkinlər rayonun əsasən Kürqırağı ərazilərində, o cümlədən Mehdili, Axtaçı, Qocalı, Ərəbqubalı və digər ərazi vahidlərində aparılır. Məqsəd odur ki, ölkə vətəndaşının tələbatı ödənilsin. Çünki ilboyu yerli və ətraf rayonların bazarlarında kartofa tələbat heç də az olmur. Odur ki, kartofçuluğa maraq Kürdəmirdə ildən-ilə artır.

Xatırladaq ki, ərzaq təhlükəsizliyi ilə əlaqədar dünya miqyasında kartofçuluğun inkişafına xüsusi fikir verilir. Təsadüfi deyil ki, 2008-ci il BMT tərəfindən "Kartof ili" elan olunmuşdu. Ölkəmizdə də bu mühüm məsələ həmişə diqqət mərkəzindədir. Hələ 2008-ci il avqustun 25-də dövlət başçısı İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə təmin edilməsinə dair Dövlət Proqramı"nda kartofçuluğun inkişafı ilə bağlı ayrıca tədbirlər nəzərdə tutulmuşdu. "İkinci çörək" kimi tanınan kartof bu gün Kürdəmirdə həm də torpaqdan il ərzində götürülən ikinci ruzi-bərəkət olur.



Rayon icra hakimiyyətinin başçısı Ceyhun Cəfərovla söhbətimizdə isə kürdəmirli torpaq adamlarının – sahibkar və fermerlərin təşəbbüskarlığı, əzmkarlığı barədə başqa faktlar da eşitdik. Dedi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hələ dövlət başçısı seçildiyi ilk illərdən etibarən regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün atdığı addımlar müsbət nəticələrini nəzərdə tutulan müddətdə vermişdi. O illərdə regionlarda çoxlu sayda sosial obyekt – məktəb, xəstəxana, idman kompleksləri tikildi, yollar çəkildi, abadlıq-quruculuq işləri heç zaman görünməmiş bir səviyyədə vüsət aldı. Son bir neçə ildə isə qeyri-neft sektorunun inkişaf etdirilməsi, xüsusən, ixracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalının artırılması istiqamətində çox ciddi işlər aparılır. Məmnunluq gətirən haldır ki, həmin layihələr ölkənin bütün bölgələrində həyata keçirilir. Kürdəmirlilər həmişə olduğu kimi, bu gün də respublikada gedən istənilən inkişaf prosesinə öz töhfələrini verirlər.

Rayon rəhbərinin həmin fikirlərinə sözardı olaraq bildirək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu il avqustun 4-də Qax rayonunda keçirilmiş barama, tütün və fındıq istehsalının inkişafına dair respublika müşavirəsində dövlətimizin başçısının çıxışından irəli gələn vəzifələrlə əlaqədar Kürdəmirdə də geniş yığıncaq keçirilib. Tədbirdə rayon icra hakimiyyətinin başçısı Ceyhun Cəfərov, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyətin nümayəndələri, bələdiyyə sədrləri və baramaçılıq fəaliyyətilə məşğul olan təsərrüfat rəhbərləri rayonun kümçüləri iştirak ediblər.

C.Cəfərov çıxış edərək bildirib ki, Prezident İlham Əliyevin sədrliyi ilə barama, tütün və fındıq istehsalının inkişafına dair keçirilən respublika müşavirəsində dövlət başçımız barama, tütün və fındıq istehsalının inkişafı ilə əlaqədar bütün aidiyyatı təşkilatlar qarşısında ciddi vəzifələr qoyaraq, öz tövsiyyə və tapşırıqlarını verib. Dövlət başçımız tərəfindən baramaçılığın inkişafına dair verilən tapşırıqlar, qəbul olunmuş qərarlar Kürdəmir rayonunda da baramaçılığın dirçəldilməsinə böyük təkan olub. Uzun fasilədən sonra -- 2016-cı ildə rayonun kümçüləri 80 qutu -- 1520 qram ipəkqurdu toxumu bəsləyərək dövlətə 3 ton 577 kiloqram barama təhvil verib. Bu sahədən 28 min 616 manat gəlir əldə edilib. Bu işə 46 ailədən 230 nəfər cəlb edilmişdi.

Kürdəmir zəhmətkeşləri barama istehsalı ilə əlaqədar bu il daha yaxşı nəticə əldə ediblər. Əhalinin məşğulluğunun təmin edilməsi məqsədi ilə kümçülərə -- 159 ailəyə 300 qutu, yəni 5 700 qram ipəkqurdu toxumu paylanılıb, nəticədə Şəki İpək Açıq Səhmdar Cəmiyyətinə 11 min 512 kiloqram barama satılıb ki, bu da ötənilki göstəricidən 7964 kioqram, yəni 3 dəfədən çox artıqdır. Rayonun 17 ərazi nümayəndəliyi üzrə 32 kənddə barama istehsalı ilə məşğul olurlar. Barama istehsalı üzrə ən yüksək nəticə Köhünlü (4400 kiloqram), Carlı (1820 kiloqram), Mollakənd (830 kiloqram), Qocalı (780 kiloqram), Qarasaqqal (750 kiloqram) ərazi icra nümayəndəliklərində əldə olunub. Kümçülər barama istehsalının artırılması məqsədi ilə yem bazasının möhkəmləndirilməsini diqqət mərkəzində saxlayırlar. Bu isə ümid verir ki, barama istehsalı Kürdəmirdə yüksək səviyyədə təşkil olunacaq.

Öyrəndiyimiz yeni məlumatlardan biri də odur ki, respublikamızın iri pambıqçılıq rayonlarından olan Kürdəmirin Sor-Sor kəndinin və Qarabucaq qəsəbəsinin ərazisində ümumi gücü 9 min ton olan iki qəbul məntəqəsi tikilir. Hər iki məntəqə sentyabrın əvvəllərində məhsul qəbul edəcək. Rayon icra hakimiyyətindən bununla bağlı verilən məlumatda bildirilib ki, Sor-Sor kəndi ərazisində "MKT-İK" MMC tərəfindən tikilən, qəbul gücü 6 min ton olan məntəqə 10 hektar sahəni əhatə edir. Artıq məntəqənin ətrafına hasar çəkilib, 18 taya yerinin, inzibati və laboratoriya binalarının hörgüsü başa çatdırılıb. Kənd Təsərrüfatı Nazirliyinin sifarişi ilə Qarabucaq kəndi ərazisində tikilən və qəbul gücü 3 min ton olan məntəqədə də işlər sürətlə davam etdirilir.

Ceyhun müəllim dedi ki, dövlət proqramına əsasən, Kürdəmirdə nəzərdə tutulmuş tədbirlər uğurla həyata keçirilir. Məsələn, bu il ümumi məhsul buraxılışı 0,8 faiz artaraq 175448,3 min manat təşkil edib. Ümumi məhsul buraxılışının 62,5 faizi istehsal sahələrində, 37,5 faizi xidmət sahələrində olub. Rayonun sosial-iqtisadi inkişafı proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi nəticəsində 2017-ci ilin birinci yarımilliyində 1687 nəfər işlə təmin olunub ki, onlardan 1667 nəfəri daimidir. 261 nəfər müvəqqəti işlə təmin olunub ki, bunlar əsasən rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlar tərəfindən yaradılmış iş yerləridir.



Əhalinin özünüməşğulluğunun təmin olunması ilə əlaqədar 17 nəfərin biznes planı müsbət qiymətləndirilib, onlardan 11 nəfərinin fəaliyyət sahəsi heyvandarlığın inkişafı, 6 nəfəri xidmət sahəsi üzrə olub. Artıq 15 ailə vəsaitlə təmin edilib, 2 ailəyə avqust ayında aktivlərin verilməsi təmin olunub.

Rayonda sahibkarlığın inkişafı daim diqqət mərkəzindədir. Əhalinin pay torpaqlarından istifadəsinin səmərəliliyi yüksəldilir. Bütün bunlar əhalinin işlə təmin olunmasına, həyat səviyyəsinin yaxşılaşdırılmasına, yoxsulluğun azaldılmasına şərait yaradır.

Ölkə rəhbərinin tapşırığına əsasən rayonda pambıqçılığın inkişafı sahəsində məqsədyönlü işlər görülüb, pambığın ixracyönümlü məhsul olduğu, pambıqçılığın əhalinin işlə təmin olunmasında əsas sahələrdən olması nəzərə alınaraq pambıq əkin sahələri genişləndirilib, bu il 4027 hektarda, yəni əvvəlki ildəkindən 2116 hektar çox sahədə pambıq əkilib, sahələrdə normal bitki alınıb, bütün kompleks becərmə işləri aparılıb. Xüsusilə vurğulanmalı məqamlardan biri də odur ki, pambıqçılıq sahəsində 4000 nəfərədək insan işlə təmin olunub.

Rayon rəhbərinin fikrincə, kürdəmirli taxılçıların problemləri olsa da, uğurları da çoxdur. Məsələn, qarğıdalı əkinlərinin vəziyyəti göstərir ki, hər hektardan 100 sentnerdən çox qarğıdalı dəni gözlənilir. Bu da 20 min tondan çox məhsul deməkdir. Qarğıdalı dəni əlavə olunmaqla taxıl istehsalı ötən ildəkindən çox gözlənilir.

Təyinatı dəyişmiş torpaqlar Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq, öz vəsaitləri hesabına Aqropark yaratmaqla, mütərəqqi irriqasiya sistemləri və suvarma şəbəkələri qurmaqla, qabaqcıl aqrotexniki tədbirlər həyata keçirməklə taxılçılıq, pambıqçılıq və digər bitkiçilik sahələrinin inkişafına zəmanət verən sahibkarlara icarəyə verilib. Artıq aqroparklar yaradılıb, onlar tərəfindən bu sahələrin meliorasiya olunması, müasir suvarma sistemləri qurulması, torpağın yaxşılaşdırılmasına yönəldilən digər tədbirlərin görülməsi sahəsində işlər aparılır. Bu torpaqların 1000 hektarından çoxu qarğıdalı, soya, qarabaşaq və digər yazlıq bitkilərin əkini üçün istifadə olunub.





Rayon ərazisində "Qlobal Aqro" MMC tərəfindən 6 min tonluq saxlama anbarı, yem və yağ emalı zavodlarının tikintisinə başlanılıb. Bu müəssisənin işə düşməsi yüzlərlə iş yeri yaranması deməkdir. Bundan başqa, rayonda 3000 hektardan çox plantasiya şəklində nar bağı salınıb. Həmin bağlardan 500 hektardan çoxunun müasir texnologiya ilə becərilməsi, damcılarla suvarılması təşkil olunub.

Tərəvəz əkinlərinin örtülü qurumlarda yetişdirilməsi genişləndirilib, 8 hektaradək sahədə 37 fiziki və hüquqi şəxs tərəfindən 98 istixana təsərrüfatı yaradılıb. Bu təsərrüfatlarda 500 tondan çox xiyar və pomidor istehsal edilib, bunun 200 tondan çoxu ixraca yönəldilib. İnvestisiya qoyuluşu məqsədi ilə rayona cəlb edilmiş sahibkarlar tərəfindən bu il Atakişili kəndinin ərazisində 2 hektar sahədə, Beyi kəndi ərazisində 0,40 hektar sahədə müasir istixana tikintisi aparılır.

Aqrolizinq ASC-nin Kürdəmirdə də Aqroservis filialı fəaliyyət göstərir. Filiala 130-dan çox traktor, kombayn və digər kənd təsərrüfatı maşın və mexanizmləri verilib. Son iki ildə 26 müasir kombayn alınıb. Rayondakı fiziki və hüquqi şəxslər tərəfindən 200-dək traktor və digər kənd təsərrüfatı texnikası lizinqə götürülüb.

Əhaliyə və idarə-müəssisələrə göstərilən xidmətin səviyyəsindən danışan rayon rəhbəri dedi ki, əhalinin elektrik enerjisi, təbii qaz və içməli su ilə təminatının yaxşılaşdırılması rayon icra hakimiyyətinin daim diqqət mərkəzindədir.



Dövlət proqramına uyğun olaraq "Azəriqaz" İstehsalat Birliyinin Kürdəmir xidmət sahəsi tərəfindən bu il qaz təchizatı sahəsində işlər yerinə yetirilib, əhalinin və rayon iqtisadiyyatının təbii qaz yanacağı ilə təminatının yaxşılaşdırılması istiqamətində nəzərdə tutulan əsas tədbirlər həyata keçirilib. Əhalinin içməli suya olan tələbatı da ödənilir.

Bir sözlə, bu gün Kürdəmirdə elə bir sahə yoxdur ki, orada inkişaf, artım, tərəqqi nəzərə çarpmasın. Bunu isə gəlmək və görmək lazımdır.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***